# İdxal olunan mallara aksiz vergisinin tətbiqi

İdxal olunan mallara aksiz vergisinin tətbiqi İdxal olunan mallara aksiz vergisinin tətbiqi Azərbaycan Respublikasının Vergi Məcəlləsinin aşağıdakı maddələrinin müvafiq bəndlərinə əsasən tənzimlənir:

## Maddə 182. Aksiz anlayışı

182.1. Aksiz - aksizli malların satış qiymətinə daxil edilən vergidir.

182.2. Azərbaycan Respublikasının ərazisində istehsal edilən, yaxud idxal olunan aksizli mallardan, vergidən azad edilən mallar istisna olunmaqla, aksiz tutulur.

## Maddə 183. Vergi ödəyiciləri

183.1. Bu fəsildə başqa hallar nəzərdə tutulmamışdırsa, Azərbaycan Respublikası ərazisində aksizli malların istehsalı və ya idxalı ilə məşğul olan bütün müəssisələr və fiziki şəxslər, habelə Azərbaycan Respublikasının hüdudlarından kənarda bilavasitə özü və ya podratçı vasitəsilə aksizli malları istehsal edən və istehsal etdiyi yerdə vergi ödəyicisi kimi uçotda olmayan Azərbaycan Respublikasının rezidentləri aksizin ödəyiciləridirlər.

183.2. Sifarişçinin göndərdiyi xammaldan Azərbaycan Respublikası ərazisində mallar istehsal edildiyi hallarda, malların istehsalçısı (podratçı) aksizin ödəyicisidir. Bu halda istehsalçı (podratçı) aksiz məbləğlərini sifarişçidən almalıdır.

183.3. Aksizli malların istehsalçısı və sifarişçisi qarşılıqlı surətdə asılı olan rezident şəxslər olduqda, malın sahibi (sifarişçi) aksizin ödəyicisidir.

## Maddə 184. Vergitutma obyekti

184.1. Aşağıdakı əməliyyatlar vergitutma obyektləridir:

184.1.1. Azərbaycan Respublikasının ərazisində istehsal edilən*, bu Məcəllənin 190.1.1 -190.1.3-cü maddələrində göstərilən aksizli mallardan başqa digər* aksizli malların istehsal binasının hüdudlarından kənara buraxılması;

184.1.2. *bu Məcəllənin 190.1.1 -190.1.3-cü maddələrində göstərilən aksizli mallardan başqa digər* idxal malları üçün - Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə uyğun olaraq aksizli malların gömrük xidmətinin nəzarətindən çıxması;

*184.1.3. Azərbaycan Respublikasının ərazisində istehsal edilən, habelə Azərbaycan Respublikasına idxal olunan bu Məcəllənin 190.1.1 -190.1.3-cü maddələrində göstərilən aksizli mallar üçün məcburi nişanın alınması.*

**Maddə 185. Vergi tutulan əməliyyatın məbləği *(vergitutma bazası)***

*185.2. İdxal olunan bu Məcəllənin 190.1.1–190.1.6-cı və 190.1.13-cü maddələrində nəzərdə tutulan aksizli mallar üçün vergi tutulan əməliyyatın məbləği (vergitutma bazası) – onların miqdarıdır.*

*Bu Məcəllənin 190.1.7-190.1.10-cu maddələrində nəzərdə tutulan idxal olunan aksizli mallar üçün vergi tutulan əməliyyat (vergitutma bazası) – onların mühərrikinin həcmidir.*

*İdxal olunan platinə görə vergi tutulan əməliyyat (vergitutma bazası) platinin hər qramı, qızıla, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarına görə – qızılın min çəki vahidindəki miqdarı, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaza görə – almazın karatıdır.*

*İdxal olunan xəz-dəri məmulatları üçün vergi tutulan əməliyyatın (vergitutma bazasının) məbləği Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə uyğun olaraq müəyyən edilən, lakin topdansatış bazar qiymətindən aşağı olmayan malların gömrük dəyəridir (aksiz və ƏDV çıxılmaqla).*

**Maddə 186. Vergi tutulan əməliyyatın vaxtı**

186.2. *bu Məcəllənin 190.1.1 -190.1.3-cü maddələrində göstərilən aksizli mallardan başqa digər aksizli malların* idxalı üçün - Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə uyğun olaraq aksizli malların gömrük xidmətinin nəzarətindən çıxdığı vaxt vergi tutulan əməliyyatın vaxtıdır.
*186.3. Azərbaycan Respublikasının ərazisində istehsal edilən, habelə Azərbaycan Respublikasına idxal olunan bu Məcəllənin 190.1.1 –190.1.3-cü maddələrində göstərilən aksizli mallar üçün məcburi nişanın alındığı vaxt vergi tutulan əməliyyatın vaxtıdır.*

***Maddə 186-1. Aksiz hesablanan dövriyyənin dəqiqləşdirilməsi***

*186-1.5. Aksiz dərəcələrində artım olduqda, məcburi nişan alarkən vergini aşağı dərəcə ilə ödəmiş vergi ödəyicisi dəyişikliyin qüvvəyə mindiyi tarixə sahibliyində olan aktivləşdirilməmiş məcburi nişanlara görə artırılmış dərəcəyə əsasən hesablanmış aksiz məbləği ilə əvvəlki dərəcəyə əsasən hesablanmış aksiz məbləği arasındakı fərqi dəyişikliyin qüvvəyə mindiyi ayın aksiz bəyannaməsində əks etdirməklə növbəti ayın 20-dən gec*

*olmayaraq, idxal əməliyyatlarına münasibətdə isə həmin məcburi nişanlarla nişanlanmış malların idxal edildiyi vaxt gömrük bəyannaməsində əks etdirməklə dövlət büdcəsinə ödəməlidir.*

*186-1.6. Aksiz dərəcələrində azalma olduqda, məcburi nişan alarkən vergini yuxarı dərəcə ilə ödəmiş vergi ödəyicisi dəyişikliyin qüvvəyə mindiyi tarixə sahibliyində olan aktivləşdirilməmiş məcburi nişanlara görə azaldılmış dərəcəyə əsasən hesablanmış aksiz məbləği ilə əvvəlki dərəcəyə əsasən hesablanmış aksiz məbləği arasındakı fərqi dəyişikliyin qüvvəyə mindiyi ayın aksiz bəyannaməsində əks etdirməklə, idxal əməliyyatlarına münasibətdə isə həmin məcburi nişanlarla nişanlanmış malların idxalı üzrə tərtib edilmiş gömrük bəyannaməsində əks etdirməklə aksiz öhdəliyini azaldır.*

## Maddə 187. İxracın vergiyə cəlb edilməsi

Aksizli malların ixracı *və Azərbaycan Respublikasının ərazisində istehsal edilən, rüsumsuz ticarət mağazalarında satılması ilə bağlı xüsusi nişanı olan aksizli malların rüsumsuz ticarət mağazalarına təqdim edilməsi* sıfır dərəcəsi ilə vergiyə cəlb olunur.

## *Maddə 188. Aksizdən azadolmalar və güzəştlər*

188.1. Aşağıdakılar aksizdən azad edilir:

*188.1.1. fiziki şəxsin şəxsi istifadəsi üçün aşağıdakı miqdarda aksizli malların idxalı:*

*188.1.1.1. 1,5 litr alkoqollu içki;*

*188.1.1.2. 2 litr energetik içki;*

*188.1.1.3. 200 ədəd siqaret, 20 ədəd siqarilla və 10 ədəd siqar;*

*188.1.1.4. 3 ədəd birdəfəlik istifadə üçün elektron siqaret, qəlyan və onların əvəzediciləri;*

*188.1.1.5. 100 ədəd alışdırılmadan nəfəsə çəkilmək üçün nəzərdə tutulmuş tərkibində tütün və ya bərpa edilmiş tütün olan məhsullar;*

*188.1.1.6. 100 qram çəkməli tütünlər, "homogenləşdirilmiş" və ya "bərpa edilmiş" tütünlər, çeynənilən və ya buruna çəkilən tütünlər, habelə qəlyan üçün tütünlər və tütün əvəzləyiciləri;*

*188.1.1.7. 50 millilitr elektron siqaretlər üçün maye;*

*188.1.1.8. 20 qram qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatları;*

*188.1.1.9. 0,5 karat emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaz;*

*188.1.1.10. Azərbaycan Respublikasına avtomobillərlə gələn şəxslər üçün həmin avtomobilin texniki pasportu ilə nəzərdə tutulmuş çənindəki yanacaq;*

*188.1.1.11. təqvim ili ərzində 1 ədəd mobil cihaz.*

188.1.2. Azərbaycan Respublikası ərazisindən tranzitlə daşınan mallar;

188.1.3. *Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 192-ci və 194-cü maddələrində nəzərdə tutulmuş hallarda* malların Azərbaycan Respublikası ərazisinə müvəqqəti idxalı;

*188.1.5. Azərbaycan Respublikası Mərkəzi Bankının aktivlərində yerləşdirilmək üçün idxal olunan platin, qızıl və emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaz, Azərbaycan Respublikası Dövlət Neft Fondunun aktivlərində yerləşdirilmək üçün idxal olunan qızıl;*

*188.1.7. bu Məcəllənin 188.1.1-ci maddəsinin müddəaları nəzərə alınmaqla, idxal olunan platin, qızıl və onlardan hazırlanmış zərgərlik və digər məmulatlar, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaz - 2021-ci il yanvarın 1-dən 6 il müddətinə;*

*188.1.8. mühərrikinin işçi həcmi 125 kubsantimetrdən çox olmayan motosikletlərin idxalı -2024-cü il yanvarın 1-dən 3 il müddətinə.*

188.2. Bu Məcəllənin 188.1-ci maddəsində göstərilən aksizdən azadolmalar yalnız o zaman tətbiq edilir ki, gömrük rüsumlarından azadolmaların şərtlərinə əməl edilmiş olsun. Əgər gömrük rüsumu tutulması məqsədləri üçün idxal, rüsumun geri qaytarılması rejiminin təsiri altına düşürsə və ya azadolmanın şərtləri pozulduğu üçün gömrük rüsumunun ödənilməsi tələb edilirsə, həmin rejim aksizin tutulmasına da tətbiq olunur.

**Maddə 190. Aksizli malların siyahısı və vergi dərəcələri**

*190.1. Aşağıdakı mallar aksizli mallara aid edilir:*

*190.1.1. tütün məmulatları və onların əvəzediciləri;*

*190.1.2. birdəfəlik istifadə üçün elektron siqaret, qəlyan və onların əvəzediciləri;*

*190.1.3. elektron siqaretlər üçün maye;*

*190.1.4. içməli spirt, pivə (alkoqolsuz pivə istisna olmaqla) və spirtli içkilərin bütün növləri;*

*190.1.5. energetik içkilər;*

*190.1.6. neft məhsulları;*

*190.1.7. minik avtomobilləri (xüsusi nişan və avadanlıqlarla təchiz olunmuş xüsusi təyinatlı avtonəqliyyat vasitələri istisna olmaqla);*

*190.1.8. avtobuslar (sıxılmış qazla işləyən avtobuslar istisna olmaqla);*

*190.1.9. dövlət qeydiyyatına alınmalı olan motosikletlər;*

*190.1.9-1. dövlət qeydiyyatına alınmalı olan kvadrisikllər;*

*190.1.10. istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr;*

*190.1.11. idxal olunan platin, qızıl, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatları, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaz;*

*190.1.12. idxal olunan xəz-dəri məmulatları;*

*190.1.13. mobil cihazlar.*

190.2. Azərbaycan Respublikasına idxal edilən aksizli mallara (*bu Məcəllənin 190.1.7–190.1.13-cü maddələrində göstərilən aksizli mallar* istisna olmaqla) aksizlərin dərəcələri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

*190.4. Azərbaycan Respublikasına idxal olunan bu Məcəllənin 190.1.7–190.1.13-cü maddələrində göstərilən aksizli mallara aşağıdakı aksiz dərəcələri tətbiq edilir:*

*190.4.1. minik avtomobillərinə (bu Məcəllənin 190.4.1-3-cü maddəsinin müddəaları nəzərə alınmaqla), istirahət və ya idman üçün yaxtalara və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələrə görə:*

| ***Vergitutma obyektinin adı*** | ***Aksizin dərəcəsi*** |
|---|---|
| *Minik avtomobilləri:* | |
| *- mühərrikin həcmi 2000 kubsantimetrədək olduqda* | *Mühərrikin həcminin hər kubsantimetrinə görə – 0, 30 manat* |
| *- mühərrikin həcmi 3000 kubsantimetrədək olduqda* | *600 manat + mühərrikin həcminin 2001- 3000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə – 5 manat* |
| *- mühərrikin həcmi 4000 kubsantimetrədək olduqda* | *5600 manat + mühərrikin həcminin 3001- 4000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə – 13 manat* |
| *- mühərrikin həcmi 5000 kubsantimetrədək olduqda* | *18600 manat + mühərrikin həcminin 4001-5000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə – 35 manat* |
| *- mühərrikin həcmi 5000 kubsantimetrdən çox olduqda* | *53600 manat + mühərrikin həcminin 5000 kubsantimetrdən çox hissəsi üçün hər kubsantimetrə görə – 70 manat* |

| | |
|---|---|
| *İstirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr* | *Mühərrikin həcminin hər kubsantimetrinə görə – 6 manat* |

*190.4.1-1. Avtobuslara görə:*

| ***Vergitutma obyektinin adı*** | ***Aksizin dərəcəsi*** |
|---|---|
| *Avtobuslar:* | |
| *– mühərrikin həcmi 4000 kubsantimetrədək olduqda* | *Mühərrikin həcminin hər kubsantimetrinə görə – 2 manat* |
| *– mühərrikin həcmi 6000 kubsantimetrədək olduqda* | *8000 manat + mühərrikin həcminin 4001 – 6000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə – 4 manat* |
| *– mühərrikin həcmi 8000 kubsantimetrədək olduqda* | *16000 manat + mühərrikin həcminin 6001 – 8000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə – 6 manat* |
| *– mühərrikin həcmi 10000 kubsantimetrədək olduqda* | *28000 manat + mühərrikin həcminin 8001 – 10000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə – 8 manat* |
| *– mühərrikin həcmi 10000 kubsantimetrdən çox olduqda* | *44000 manat + mühərrikin həcminin 10000 kubsantimetrdən çox hissəsi üçün hər kubsantimetrə görə – 10 manat* |

*190.4.1-2. Azərbaycan Respublikasına idxal olunan avtobusların istehsal tarixi 1 ildən artıq və ya qət etdiyi məsafə 100000 kilometrdən artıq olduqda, aksiz bu Məcəllənin 190.4.1-1-ci maddəsinə əsasən hesablanmış məbləğə 1,5 əmsal tətbiq edilməklə hesablanır;*

*190.4.1-3. mühərrikin həcmi 3000 kubsantimetrdən çox və istehsal tarixi 3 ildən artıq olan minik avtomobillərinə görə:*

| *Vergitutma obyektinin adı* | *Aksizin dərəcəsi* |
|---|---|
| *- mühərrikin həcmi 4000 kubsantimetrədək olduqda* | *5600 manat + mühərrikin həcminin 3001-4000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə - 15 manat* |
| *- mühərrikin həcmi 5000 kubsantimetrədək olduqda* | *20600 manat + mühərrikin həcminin 4001-5000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə - 40 manat* |
| *- mühərrikin həcmi 5000 kubsantimetrdən çox olduqda* | *60600 manat + mühərrikin həcminin 5000 kubsantimetrdən çox hissəsi üçün hər kubsantimetrə görə - 80 manat* |

*190.4.1-4. Azərbaycan Respublikasına idxal olunan minik avtomobillərinin istehsal tarixi 7 ildən artıq olduqda, aksiz bu Məcəllənin 190.4.1-ci və 190.4.1-3-cü maddələrinə əsasən hesablanmış məbləğə benzin mühərrikli minik avtomobillərinə 1,5, dizel mühərrikli minik avtomobillərinə isə 2,0 yüksəldici əmsal tətbiq edilməklə hesablanır;*

*190.4.1-5. motosikletlərə görə:*

| *Aksizli malın adı* | *Aksizin dərəcəsi* |
|---|---|
| *Motosikletlər:* | |
| *mühərrikin həcmi 125 kubsantimetrədək olduqda* | *mühərrikin həcminin hər kubsantimetrinə görə 0,20 manat* |
| *mühərrikin həcmi 500 kubsantimetrədək olduqda* | *25 manat + mühərrikin həcminin 126-500 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə 0,40 manat* |
| *mühərrikin həcmi 500 kubsantimetrdən çox olduqda* | *175 manat + mühərrikin həcminin 500 kubsantimetrdən çox hissəsi üçün hər kubsantimetrə görə 0,50 manat* |

*190.4.1-6. Kvadrisikllərin mühərrikin həcminin hər kubsantimetrinə görə – 0,5 manat;*

*190.4.2. idxal olunan platinin hər qramına görə - 4,0 manat;*

*190.4.3. idxal olunan qızılın, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının min çəki vahidindəki miqdarına görə:*

*190.4.3.1. qızılın min çəki vahidindəki miqdarı 375 (üç yüz yetmiş beş) olduqda, hər qramına görə - 1,5 manat;*

*190.4.3.2. qızılın min çəki vahidindəki miqdarı 500 (beş yüz) olduqda, hər qramına görə - 2,0 manat;*

*190.4.3.3. qızılın min çəki vahidindəki miqdarı 585 (beş yüz səksən beş) olduqda, hər qramına görə - 2,4 manat;*

*190.4.3.4. qızılın min çəki vahidindəki miqdarı 750 (yeddi yüz əlli) olduqda, hər qramına görə - 3,0 manat;*

*190.4.3.5. qızılın min çəki vahidindəki miqdarı 958 (doqquz yüz əlli səkkiz) olduqda, hər qramına görə - 5,0 manat;*

*190.4.3.6. qızılın min çəki vahidindəki miqdarı 999 (doqquz yüz doxsan doqquz) olduqda, hər qramına görə - 6,0 manat;*

*190.4.4. idxal olunan emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almazın 1 karatı üçün 400 manat (aksiz dərəcəsi) olmaqla, aşağıdakı qaydada hesablanır:*

*190.4.4.1. almazın bir ədədinin miqdarı 1 karatdan aşağı olduqda, aksiz dərəcəsi almazın faktiki miqdarına mütənasib olaraq azaldılır;*

*190.4.4.2. almazın bir ədədinin miqdarı 1 karatdan yuxarı olduqda, aksizin məbləği aksiz dərəcəsi ilə almazın faktiki miqdarının hasilinə aşağıdakı əmsallar tətbiq edilməklə hesablanır:*

*190.4.4.2.1. 1 karatdan 2 karatadək olduqda - 2,0;*

*190.4.4.2.2. 2 karatdan 3 karatadək olduqda - 3,0;*

*190.4.4.2.3. 3 karatdan 4 karatadək olduqda - 4,0;*

*190.4.4.2.4. 4 karatdan 5 karatadək olduqda - 5,0;*

*190.4.4.2.5. 5 karatdan yuxarı olduqda - 10,0.*

*190.4.5. idxal olunan xəz-dəri məmulatlarının topdansatış bazar qiymətindən aşağı olmayan gömrük dəyərinin 10 faizi;*

*190.4.6. mobil cihazların hər bir ədədinə – 20,0 manat*

190.5. Azərbaycan Respublikasında istehsal olunan *bu Məcəllənin 190.1.6 – 190.1.10-cu və 190.1.13-cü maddələrində nəzərdə tutulan aksizli mallar üzrə* aksiz dərəcələri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Maddə 191. Aksizlər üzrə hesabat dövrü və aksizlərin ödənilməsi**

191.1. Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə, hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq ödənilməlidir.

191.2. Vergi ödəyicisinin aksizin ödənişi üzrə borcu varsa, həmin borc yaranandan ödənilənədək həyata keçirilən vergi tutulan əməliyyatlar üzrə aksizlər bu Məcəllənin 191.1-ci maddəsinin tələblərinə baxmayaraq həmin əməliyyatların aparıldığı vaxt ödənilir və vergi ödəyicisinin həmin malları bu mallar üzrə aksizi ödəyənədək istehsal binasının hüdudlarından kənara çıxartmağa hüququ yoxdur.

191.3. Aksizli mallar idxal edildikdə, aksiz gömrük orqanları tərəfindən gömrük rüsumlarının tutulduğu qaydada tutulur.

*191.3-1. bu Məcəllənin 190.1.1 -190.1.3-cü maddələrində göstərilən aksizli mallar Azərbaycan Respublikasının ərazisində istehsal və ya ölkəyə idxal edildikdə aksizlər həmin mallar üçün məcburi nişanın alındığı vaxt ödənilir.*

191.4. Aksizlər dövlət büdcəsinə ödənilir.

**Maddə 193. Təkrar ixrac zamanı aksizin qaytarılması**

193.1. Sonradan təkrar ixrac məqsədi ilə idxal olunan mallar üçün aksiz, malların idxalı vaxtı *(bu Məcəllənin 190.1.1 -190.1.3-cü maddələrində göstərilən aksizli mallara münasibətdə həmin mallar üçün məcburi nişanın alındığı vaxt)* ödənilir və sonradan təkrar ixracın faktiki həcminə müvafiq məbləğdə aksizi almış gömrük orqanları tərəfindən 15 gün ərzində geri qaytarılır.

**Maddə 194. Aksizli mallar üzərində vergi nəzarəti**

*194.1. Azərbaycan Respublikasında istehsal edilən, yaxud ölkəyə idxal olunan aksiz markası ilə markalanmalı olan malların siyahısı, Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi, aksiz markalarının hazırlanması üçün sifarişin verilməsi, onların tətbiqi, satışı və uçotunun aparılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir. Aksiz markalarının hazırlanması, onların vergi ödəyicilərinə verilməsi və uçotunun aparılması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təşkil edilir. Belə aksizli malları markasız idxal etmək, saxlamaq (şəxsi məqsədlər üçün istisna olmaqla) və ya satmaq qadağandır.*

*194.1-1. Bu Məcəllənin 194.1-ci maddəsində nəzərdə tutulan qaydaların tələblərini pozan şəxs bu Məcəllədə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyır.*

*194.1-2. Aksiz markasının verilməsinə görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.*

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 19 yanvar tarixli 20 nömrəli Qərarı***

***Azərbaycan Respublikasının ərazisinə gətirilən aksizli malların aksiz dərəcələri***

| ***Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 190.2-ci maddəsində göstərilən aksizli malların xarici iqtisadi fəaliyyətin mal nomenklaturasına uyğun kodları*** | ***Mal mövqelərinin adları*** | ***Aksiz dərəcələri (ölçü vahidinə görə, manatla)*** |
|---|---|---|
| ***1*** | ***2*** | ***3*** |
| *2202 10 000 9* | *şəkər əlavələri və ya digər şirinləşdirici və ya dad-aromatik maddələr əlavə edilmiş energetik içkilər* | *1 litr üçün 3,1 manat* |
| *2202 99 180 2* | *meyvə və tərəvəz şirəsi əsaslı energetik içkilər* | *1 litr üçün 3,1 manat* |
| *2203 00* | *səməni pivəsi* | *1 litr üçün 1,9 manat* |
| *2204 (2204 10 110 0 və 2204 30 100 0 istisna olmaqla)* | *təbii üzüm şərabları, spirt qatılmışlar daxil olmaqla; üzüm suslosu, 2009 mal mövqeyində təsnif ediləndən başqa* | *1 litr üçün 3,6 manat* |
| *2204 10 110 0* | *şampan şərabı* | *1 litr üçün 2,7 manat* |
| *2204 30 100 0* | *qıcqırma prosesində və ya spirt əlavə edilməkdən fərqli üsulla dayandırılmış qıcqırma ilə alınmış digər üzüm susloları* | *1 litr üçün 0,2 manat* |
| *2205* | *vermutlar və bitki və ya aromatik ekstraktların əlavəsi ilə digər təbii üzüm şərabları* | *1 litr üçün 3,6 manat* |
| *2206 00* | *digər qıcqırdılmış içkilər (sidr, perri və ya armud sidri, ballı içki); qıcqırdılmış içkilərin qarışıqları və qıcqırdılmış içkilərlə spirtsiz içkilərin qarışıqları, başqa yerdə adları çəkilməyən və ya təsnif olunmamış* | *1 litr üçün 3,6 manat* |
| *2207 10 000 0* | *denaturasiya olunmamış etil spirti, 80 həcm faiz və ya çox spirt qatılığı ilə* | *1 litr üçün 6,8 manat* |
| *2208 20* | *üzüm çaxırının və ya üzüm puçallarının distillə edilməsi nəticəsində alınan spirtli tinkturalar* | *1 litr üçün 8,8 manat* |
| *2208 30* | *viski* | *1 litr üçün 12,8 manat* |

| | | |
|---|---|---|
| *2208 40* | *rom və digər spirtli tinkturalar, şəkər qamışının qıcqırdılmış məhsullarının qovulması nəticəsində alınan* | *1 litr üçün 12,8 manat* |
| *2208 50* | *cin və ardıc tinkturası* | *1 litr üçün 12,8 manat* |
| *2208 60* | *araq* | *1 litr üçün 12,8 manat* |
| *2208 70* | *likörlər* | *1 litr üçün 12,8 manat* |
| *2208 90 110 0– 2208 90 780 9 (2208 90 690 1 və 2208 90 780 1 istisna olmaqla)* | *digər spirtli içkilər* | *1 litr üçün 12,8 manat* |
| *2208 90 690 1* | *tərkibində spirtin miqdarı 9,0 faizdən az olan digər tündləşdirilməmiş alkoqollu içkilər* | *1 litr üçün 1,9 manat* |
| *2208 90 780 1* | *tərkibində spirtin miqdarı 9,0 faizdən az olan digər tündləşdirilməmiş alkoqollu içkilər* | *1 litr üçün 1,9 manat* |
| *2208 90 910 0*<br>*2208 90 990 0* | *həcm faizi 80-dən az qatılığı olan denaturatlaşdırılmamış etil spirti* | *1 litr üçün 6,8 manat* |
| *2402 10 000 2* | *tərkibində tütün olan siqarlar, o cümlədən ucları kəsilmiş siqarlar* | *1 ədəd üçün 1,0 manat* |
| *2402 10 000 9* | *tərkibində tütün olan siqarillalar* | *1000 ədəd üçün 45,5 manat* |
| *2402 20* | *tərkibində tütün olan siqaretlər* | *1000 ədəd üçün 53,5 manat* |
| *2402 90 000 2* | *tərkibində tütün əvəzləyicisi olan siqarlar* | *1 ədəd üçün 1,0 manat* |
| *2402 90 000 3* | *tərkibində tütün əvəzləyicisi olan siqarillalar* | *1000 ədəd üçün 45,5 manat* |
| *2402 90 000 9* | *tərkibində tütün əvəzləyicisi olan siqaretlər* | *1000 ədəd üçün 53,5 manat* |
| *2403 11 000 0*<br>*2403 19 100 9*<br>*2403 19 900 9*<br>*2403 91 000 0*<br>*2403 99 100 0*<br>*2403 99 900 3* | *qəlyan üçün tütünlər və tütün əvəzləyiciləri, istehsal məqsədli tütünlər istisna olmaqla digər çəkməli tütünlər, "homogenləşdirilmiş" və ya "bərpa edilmiş" tütünlər, çeynənilən və ya buruna çəkilən tütünlər* | *1 kq üçün 30 manat* |
| *2404 11 000 0* | *alışdırılmadan nəfəsə çəkilmək üçün nəzərdə tutulmuş tərkibində tütün və ya bərpa edilmiş tütün olan məhsullar* | *1000 ədəd üçün 16 manat* |
| *2404 12 000 1*<br>*2404 19 000 1* | *elektron siqaretlər üçün maye* | *1 litr üçün 100,0 manat* |
| *2404 12 000 2*<br>*2404 19 000 2* | *birdəfəlik istifadə olunan elektron siqaret, qəlyan və onların əvəzediciləri* | *1 ədəd üçün 2 manat* |

| | | |
|---|---|---|
| *2710 12 110 0* | *yüngül distilyatlar və məhsullar: emalın spesifik prosesləri üçün* | *1 ton üçün 1,0 manat* |
| *2710 12 150 0* | *yüngül distilyatlar və məhsullar: proseslərdə kimyəvi çevrilmələr üçün, 2710 12 110 0 alt yarımmövqeyində göstərilənlərdən başqa* | *1 ton üçün 1,0 manat* |
| *2710 12 210 0* | *xüsusi benzinlər: uayt-spirit* | *1 ton üçün 1,0 manat* |
| *2710 12 250 0* | *digər xüsusi benzinlər* | *1 ton üçün 1,0 manat* |
| *2710 12 310 0* | *aviasiya benzinləri* | *1 ton üçün 1,0 manat* |
| *2710 12 413 0* | *mühərrik benzinləri, aviasiya benzinləri istisna olmaqla, tərkibində qurğuşunun miqdarı 0,013 q/l-dən çox olmayan, 95-dən az oktan ədədi ilə* | *1 ton üçün 200 manat (2025-ci il 1 iyun tarixinədək – 1,0 manat)* |
| *2710 12 450 0* | *mühərrik benzinləri, aviasiya benzinləri istisna olmaqla, tərkibində qurğuşunun miqdarı 0,013 q/l-dən çox olmayan, 95 və ya daha çox, lakin 98-dən çox olmayan oktan ədədi ilə* | *1 ton üçün 80 manat* |
| *2710 12 490 0* | *mühərrik benzinləri, aviasiya benzinləri istisna olmaqla, tərkibində qurğuşunun miqdarı 0,013 q/l-dən çox olmayan, 98 və ya çox oktan ədədi ilə* | *1 ton üçün 120 manat* |
| *2710 12 510 1* | *mühərrik benzinləri, aviasiya benzinləri istisna olmaqla, tərkibində qurğuşunun miqdarı 0,013 q/l-dən çox, 95-dən az oktan ədədi ilə* | *1 ton üçün 200 manat (2025-ci il 1 iyun tarixinədək – 1,0 manat)* |
| *2710 12 510 9* | *mühərrik benzinləri, aviasiya benzinləri istisna olmaqla, tərkibində qurğuşunun miqdarı 0,013 q/l-dən çox, digərləri* | *1 ton üçün 80 manat* |
| *2710 12 590 0* | *mühərrik benzinləri, aviasiya benzinləri istisna olmaqla, tərkibində qurğuşunun miqdarı 0,013 q/l-dən çox, 98 və ya çox oktan ədədi ilə* | *1 ton üçün 120 manat* |
| *2710 12 700 0* | *reaktiv benzin yanacağı* | *1 ton üçün 1,0 manat* |
| *2710 12 900 0* | *digər yüngül distilyatlar* | *1 ton üçün 1,0 manat* |
| *2710 19 110 0* | *orta distilyatlar: emalın spesifik prosesləri üçün* | *1 ton üçün 80 manat* |
| *2710 19 150 0* | *orta distilyatlar: proseslərdə kimyəvi çevrilmələr üçün, 2710 19 110 0 alt yarımmövqeyində göstərilənlərdən başqa* | *1 ton üçün 1,0 manat* |
| *2710 19 210 1* | *reaktiv mühərriklər üçün TC-1 markalı yanacaq* | *1 ton üçün 80,0 manat (31.12.2026-cı il tarixinədək – 1,0 manat)* |
| *2710 19 210 9* | *reaktiv mühərriklər üçün digər yanacaq* | *1 ton üçün 80,0 manat (31.12.2026-cı il tarixinədək – 1,0 manat)* |
| 2710 19 250 0 | digər məqsədlər üçün kerosin | 1 ton üçün 80 manat |

| | | |
|---|---|---|
| *2710 19 290 0* | *digər məqsədlər üçün digər orta distilyatlar* | *1 ton üçün 80 manat* |
| *2710 19 310 0* | *emalın spesifik prosesləri üçün qazoyllar* | *1 ton üçün 80 manat* |
| *2710 19 350 0* | *proseslərdə kimyəvi çevrilmələr üçün qazoyllar* | *1 ton üçün 80 manat* |
| *2710 19 421 0 – 2710 19 480 0* | *digər qazoyllar, o cümlədən dizel yanacağı* | *1 ton üçün 80 manat (2025-ci il 1 iyun tarixinədək – 1,0 manat)* |
| *2710 19 510 0 – 2710 19 680 0* | *maye yanacaq* | *1 ton üçün 1,0 manat* |
| *2710 19 710 0* | *sürtkü yağları və digər yağlar; emalın spesifik prosesləri üçün* | *1 ton üçün 1,0 manat* |
| *2710 19 750 0* | *sürtkü yağları və digər yağlar: proseslərdə kimyəvi çevrilmələr üçün, 2710 19 710 0 alt yarımmövqeyində göstərilənlərdən başqa* | *1 ton üçün 1,0 manat* |
| *2710 19 820 0* | *mühərrik yağları, kompressor sürtkü yağı, turbin sürtkü yağı* | *1 ton üçün 50 manat* |
| *2710 19 840 0* | *hidravlik məqsədlər üçün mayelər* | *1 ton üçün 1,0 manat* |
| *2710 19 860 0* | *açıq rəngli yağlar, vazelin yağı* | *1 ton üçün 1,0 manat* |
| *2710 19 880 0* | *dişli çarxlar üçün yağ və reduktorlar üçün yağ* | *1 ton üçün 1,0 manat* |
| *2710 19 920 0* | *metalların emalı üçün tərkiblər, qəliblərin yağlanması üçün yağlar, antikorroziya yağları* | *1 ton üçün 1,0 manat* |
| *2710 19 940 0* | *elektrik izolyasiya yağları* | *1 ton üçün 50 manat* |
| *2710 19 980 0* | *digər sürtkü yağları və digər yağlar* | *1 ton üçün 1,0 manat* |
| *2710 20 110 0 – 2710 20 190 0* | *qazoyllar* | *1 ton üçün 80 manat* |
| *2710 20 310 0 – 2710 20 390 0* | *maye yanacaq* | *1 ton üçün 1,0 manat* |
| *2710 20 900 0* | *digər neft məhsulları* | *1 ton üçün 50 manat* |
| *2712 10* | *neft vazelini* | *1 ton üçün 10,0 manat* |
| *2713* | *neft koksu, neft bitumu və neftin və ya neft məhsullarının emalından qalan, o cümlədən bitumlu minerallardan alınmış digər qalıqlar* | *1 ton üçün 24 manat* |
| *2714* | *təbii bitum və asfalt; bitumlu şistlər və ya neftli şist və bitumlu qum daşı; asfaltitlər və asfalt süxurları* | *1 ton üçün 1,0 manat* |
| *2715 00 000 0* | *təbii asfalt, təbii bitum, neft bitumu, mineral qatranlar və ya mineral qatranların peki (məsələn, bitumlu mastika, yol örtükləri üçün asfalt qarışıqları) əsasında bitumlu qarışıqlar* | *1 ton üçün 1,0 manat* |